UOT 373.3/5.

***Kəmalə Rafiq qızı Quliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllim*

# TƏDRİS MÜƏSSİSƏSİNDƏ MÜƏLLİM KADRLARIN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN ARTIRILMASI

***Камала Рафиг гызы Гулиева***
*доктор философии по педагогике, старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ПОВЫШЕНИЕ ПРОФЕССИОНАЛИЗМА ПРЕПОДАВАТЕЛЬСКОГО СОСТАВА В УЧЕБНОМ ЗАВЕДЕНИИ

***Kamala Rafig Gulieva***
*PhD in pedagogy, senior teacher Azerbaijan State Pedagogical University*

# IMPROVİNG THE PROFESSİONALİSM OF THE TEACHİNG STAFF İN THE SCHOOL

**Xülasə:** Məqalədətədris müəssisəsində müəllim kadrların peşəkarlıq səviyyəsinin artırılması yolları və istiqamətləri araşdırılmışdır.
***Açar sözləri:*** *Avropa, peşəkar, dünya təhsili, inteqrasiya, pedaqoji kadrlar, təhsilalanlar.*

**Резюме:** В статье рассматриваются пути и средства повышения профессионализма преподавательского состава в учебном заведении.
***Ключевые слова:*** *Европа, профессиональное, мировое образование, интеграция, педагогические кадры, обучаемые.*

**Summary:** The article explores ways and means of increasing the professionalism of the teaching staff in the educational institution.
***Key words:*** *European, professional, world education, integration, pedagogical cadres, educators.*

Milli təhsil sisteminin Avropa və dünya təhsil məkanına inteqrasiyası XXI əsrdə təhsil sferasının daha önəmli və aktual problemlərindən biridir. Bu inteqrasiya müasir Azərbaycanda həyata keçirilən iqtisadi və sosial-mədəni islahatlar və çağırışlar fonunda baş verir. Hazırda respublikamızın təhsil sistemi radikal islahatlar, bir çox ənənəvi stereotiplərdən imtina dövrünü yaşayır. Müasir dövrdə pedaqoji kadrların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsinə tələbkarlıq artır, həyatın diqtə etdiyi yeni keyfiyyətlərin qazanılması həyati zərurətə çevrilir. Müəllimlərin peşəkar inkişafına xidmət edən tədbirlər genişmiqyaslı xarakter daşıyır və eyni zamanda, müəllim hazırlığı sahəsini də əhatə edir.

R. Cabbarovun qeyd etdiyi kimi: "Təhsil islahatı proqramları, təhsil qanunları, idarəetmə sistemi nə qədər mükəmməl olsa belə, müəllimin aparıcı rolu, onun peşəkarlığı nəzərə alınmazsa, vəzifələrin həyata keçirilməsində çətinliklər olacaq, müsbət nəticə əldə etmək mümkün olmayacaqdır."(3, s. 54)

Təcrübəli müəllim öz fənnini bilməklə yanaşı, pedaqoji prosesdə hər bir iştirakçının yerini görməli, şagirdlərin fəaliyyətini təşkil etməli, onun nəticələrini qiymətləndirməli, düzəlişlər etməyi bacarmalıdır. A.N. Abbasova belə hesab edir ki, müəllim bacarığı aşağıdakı amillərlə təyin olunur:

1. Metodoloji (pedaqoji-psixoloji) bacarıqlar;
2. Ümumi mədəni səviyyəni əks etdirən bacarıqlar;
3. Fənyönümlü bacarıqlar.(1, s.25)

Öz fənnini fənn kurikulumlarını tətbiq edərək tədris edən müəllim yenilikçi olmalı, yaradıcı düşüncəyə malik olmalıdır. Çünki pedaqoji fəaliyyətin yaradıcı istiqamətlənməsi müəllimdən aşağıdakıları tələb edir:

1. Öz imkanlarını obyektiv qiymətləndirmək, öz sənəti üçün əhəmiyyətli olan zəif və güclü cəhətlərini müəyyən edə bilmək (özünüidarə, özünüqiymətləndirmə, emosionallıq, kommunikativ, didaktik qabiliyyətlər və s.)

2. İntellektual fəaliyyət, davranış və ünsiyyət mədəniyyətinə, o cümlədən pedaqoji mədəniyyətə malik olmaq;

3. İnteqrasiya proseslərinə, dünya təhsil məkanının inkişaf tendensiyasına uyğunlaşa bilmək.

Buradan belə nəticə çıxır ki, peşə bacarığına malik olan müəllim pedaqoji fəaliyyətini, ünsiyyətini tələb olunan səviyyədə həyata keçirir, şagirdlərin təlim və tərbiyəsi işində yüksək nəticələr əldə edir.

Ümumiyyətlə, "pedaqoji peşə bacarığı" termini altında nə başa düşülür?" Hansı müəllimi peşə bacarığı olan şəxs hesab etmək olar?

L. Mitina yazır: Peşə bacarığı, bir tərəfdən, peşə təhsili və peşə bacarığının inteqrativ keyfiyyəti kimi başa düşülürsə, digər tərəfdən, ona şəxsiyyətin keyfiyyəti kimi baxılır. Bura yüksək icra keyfiyyəti, əmək mədəniyyəti və şəxsiyyətlərarası ünsiyyət, peşə problemlərini yaradıcı və təşəbbüskarlıqla həll etmək bacarığı, habelə idarəçilik məsələlərini qəbul etməyə hazır olmaq, yeni şəraitdə fəaliyyətə uyğunlaşmaq və s. xüsusiyyətlər xasdır (6, s. 113).

A. Abdullayevə görə, "peşəkar müəllim elə mütəxəssisdir ki, peşə normalarını bilir, qarşısına müstəqil məqsəd qoyur, öz təşəbbüsü ilə peşə qabiliyyətini inkişaf etdirir, yüksək motivasiya və özünütənzim səviyyəsinə malik olur, öz fəaliyyətini düzgün idarə etməyi bacarır. Peşə bacarığına ixtisas (fənn) bacarıqlarından daha çox şəxsiyyət keyfiyyətləri daxildir" (2, s. 73).

Beləliklə, peşə bacarığının inkişafı dedikdə, müəllimin şəxsi yaradıcılığının inkişafı, yeniliyi qəbul etmək sahəsində formalaşması, ixtisasını, fənnini, onun tədrisi metodikasını və uşaq psixologiyasını dərindən bilmək əsasında pedaqoji innovasiyaları dərk etməsi və tətbiq etmək bacarığı başa düşülür. Müəllimin peşəkarlıq səviyyəsinin yüksəldilməsi təhsilin, təlim və tərbiyənin keyfiyyətini yüksəltməyin əsas şərtlərindən biridir.

Müəllim pedaqoji ustalığa nail olarsa, pedaqoji nəzəriyyəni yüksək səviyyədə mənimsəyərsə, praktik fəaliyyətində pedaqoji rəftardan düzgün və yerində istifadə edərsə, o zaman təhsil sistemində pedaqoji proses uğurlu olacaqdır.

"Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması" kimi ifadə olunan ikinci strateji istiqamətdə təhsilin aparıcı qüvvəsi sayılan müəllim kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı tədbirləri əhatə edir. Göstərilən tədbirlər sırasında maraq doğuran alt komponentlərdən biri "2.1.3. müəllimlərin təhsil müəssisəsi səviyyəsində, tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması üzrə özünü doğrultmuş innovativ modellərin tətbiqi" adlanır ki, dövrümüz üçün olduqca aktual olan bu məsələdir.

Fəal, yaradıcı müəllim həyata keçirilməkdə olan təhsil konsepsiyasının mahiyyətini anlamalı, müasir dərsə verilən tələbləri, onun strukturunu dərindən mənimsəməli və təlim texnologiyalarına yüksək səviyyədə yiyələnməlidir. Bunun üçün isə o, daim öz üzərində işləməli, nəzəri-metodik hazırlığını təkmilləşdirməli və beləliklə, səriştəli mütəxəssis kimi fəaliyyət göstərməlidir. Mövcud təcrübənin təhlili belə bir nəticəyə gəlməyə imkan yaradır ki, müəllimin peşəkarlıq səviyyəsinin artırılması iki formada: tədrisdən ayrılmaqla ixtisasartırma kursları vasitəsilə və tədrisdən ayrılmadan öz üzərində müstəqil işləməklə həyata keçirilə bilir. Əgər birinci forma planauyğun qaydada əsasən məcburi şəkildə tətbiq edilirsə, ikinci forma müəllimin mənəvi tələbat və ehtiyacına uyğun olaraq könüllü şəkildə yerinə yetirilir. Müəllimin tədrisdən ayrılmadan öz peşə ustalığını artırması müxtəlif yollarla həyata keçirilə bilər ki, bunlardan aşağıdakılar daha səmərəli hesab olunur:

1. Müstəqil mütaliə yolu ilə.

2. Qabaqcıl iş təcrübəsinin öyrənilməsi yolu ilə (5).

Əgər ənənəvi təlimdə müəllim biliklərin bir mənbədən (dərslikdən) digər mənbəyə (şagird yaddaşına) ötürülməsini bir məqsəd kimi qarşıya qoyurdusa, hazırda müvafiq bilik və ba-

carıqların təlim materialları üzərində fikir mübadiləsi yolu ilə əldə olunması yollarını tətbiq etməyə çalışır. Odur ki, şagird təfəkkürünü daha intensiv işlətməyə hesablanmış yeni təlim modeli müəllimi daim öz üzərində çalışmağa, axtarıcılığa sövq edir. Müəllim gözlənilən təlim nəticələrini qabaqcadan müəyyənləşdirməklə ən optimal təlim üsullarını tətbiq etmək bacarığına yiyələnməlidir. Bu isə müəllimdən müasir elmi-metodik ədəbiyyatı gündəlik izləməyi, yeni ideyalarla potensial imkanlarını artırmağı tələb edir. Müəllim şagirdlərini fəallaşdırmaq, təlim prosesinə yaradıcı qoşmaq istəyirsə, ilk növbədə, özü yaradıcı olmalıdır. Yaradıcılıq isə daimi mütaliə, düşünmə üzərində qurulur. Müasir müəllim həm məktəb pedaqogikası və psixologiyası, həm də tədris etdiyi fənnin nəzəri və metodik əsasları ilə bağlı son dövrlərdə nəşr edilən elmi məqalələrlə, monoqrafiyalarla tanış olmalıdır ki, yeni söz deməyə, yeni iş üsulları tətbiq etməyə qadir olsun. Təəssüf ki, bu mənbələr kənara qalsın, hətta ixtisas fənlərinin tədrisi jurnalları ilə maraqlanmayan müəllimlərimiz də az deyil. Sözsüz ki, bu da müəllimlərin peşə hazırlığına mənfi təsir göstərməklə təlimin keyfiyyətini aşağı salır. Əsl yaradıcı müəllim qazandığı nailiyyətlərlə kifayətlənməməli, təlim prosesinə yeniliklər gətirmək həvəsi ilə çalışmalıdır. Buna görə də gündəlik mütaliə müəllim peşəkarlığının enerji mənbəyi kimi dəyərləndirilə bilər.

Müəllimin peşə hazırlığının yüksəldilməsində nəzəri-metodik biliklərin artırılması ilə yanaşı, qabaqcıl təcrübənin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, müəllimin tədris prosesindən ayrılmadan qabaqcıl iş təcrübələri ilə tanışlığında müxtəlif iş formalarından da geniş istifadə olunur.

Müşahidələr göstərir ki, qabaqcıl müəllimin "açıq dərs"ləri yalnız eyni fənni tədris edən müəllimlərin iştirakı ilə keçirilir. Bu onunla bağlıdır ki, çox zaman belə dərslərin təhlilində məzmun məsələləri qabardılır. Fikrimizcə, belə dərslərə ixtisasından asılı olmayaraq bütün müəllimlər, xüsusilə gənclər cəlb olunmalıdırlar. "Açıq dərs"lər bir tərəfdən öyrədici xarakter daşıyırsa, digər tərəfdən qabaqcıl müəllimlərin iş təcrübəsinin öyrənilib yayılmasına xidmət edir.

Açıq dərslər təlim işində təcrübə mübadiləsinə kömək edən vasitə kmi ən yaxşı dərs nümunələrini yaymaq məqsədi daşıyır.

M. Aranlı belə hesab edir ki,” Açıq dərslərin müzakirəsi xüsusilə vacibdir. Adətən müzakirələr normal şəkildə aparılır, daha çox tərifli sözlərdən ibarət olur, əsas nöqsanlar qeyd və təhlil edilmir. Belə olduqda açıq dərs və onun müzakirəsi heç bir əhəmiyyət daşımır və məktəbin elmi-metodik inkişafında mahiyyət etibarı ilə rol oynamır. Müzakirə tənqid və özünütənqid ruhunda aparılmalıdır. Açıq dərslərin elmi-metodik prinsip və meyarlar əsasında təhlil olunması təmin edilməlidir. Bu dərslər ideya-siyasi, elmi-nəzəri və elmi-metodik baxımdan obyektiv təhlil olunmalıdır”.(4)

**Problemin aktuallığı.** Hazırda respubli-kamızın təhsil sistemi radikal islahatlar, bir çox ənənəvi stereotiplərdən imtina dövrünü yaşayır. Müasir dövrdə pedaqoji kadrların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsinə tələbkarlıq artır, həyatın diqtə etdiyi yeni keyfiyyətlərin qazanılması həyati zərurətə çevrilir.

**Problemin elmi yeniliyi.** Müəllimin peşə bacarığının inkişaf etdirilməsindən ötrü yeni-yeni istiqamətlər göstərilmiş, pedaqoji innovasiyaların mahiyyəti geniş şəkildə şərh edilmişdir.

**Problemin tətbiqi əhəmiyyəti.** Elmi məqalədə elmi ideyalar və faktlar geniş şərh edilmişdir. Bu ideya və faktlardan gələcək gənc müəllim və metodistlər peşə bacarıqlarının inkişaf etdirilməsindən ötrü istifadə edə bilərlər.

## Ədəbiyyat:

1. Abbasov A. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2010.
2. Abdullayev A. Müəllimin peşə bacarığının yüksəldilməsi faktorları və yolları. //Azərbaycan məktəbi, ARTİ, 2013, №2
3. Cabbarov R.H. Təhsil müəssisələrində təlim-tərbiyə işlərinin idarəedilməsi və planlaşdırılması məsələləri, Bakı: Müəllim, 2008.
4. Aranlı M. Açıq dərslərin təşkili. https: // www /fasebook /com // posts / 544481269015209

5. Müəllimin tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması aktual problem kimi www.muallim.edu.az/www.old/arxiv/2014/02/23.htm

6. Митина Л. Психология профессиольного развития, М., 1998.

**E-mail**: kamala328@mail.ru

**Rəyçilər*:*** *ped.ü.fəls.dok., dos.* **Ə. İsmayılxanova,**
*ped.ü.fəls.dok., dos.* **H. Cəfərov**
**Redaksiyaya daxil olub:** 08.10.2018